**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**




**İNFORMASİYA-BİBLİOQRAFİYA ŞÖBƏSİ**




# XX əsrin faciəsi-Xocalı soyqırımı

**Biblioqrafik icmal**

**BAKI – 2016**

## XX əsrin faciəsi-Xocalı soyqırımı

### (Xocalı faciəsinin 24-cü ildönümü ilə əlaqədar biblioqrafik icmal)

**Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.**

**Ümummilli lider Heydər Əliyev**

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi (Stepanakert) şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artilleriyadan şiddətli atəşə tutuldu. Nəticədə, fevralın 26-ı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etdi. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla – 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü.

Xocalı soyqırımının baş verdiyi o müdhiş gecədən artıq 24 il keçir. Respublikamızda və onun hüdudlarından kənarda Xocalı soyqırım qurbanları ehtiramla yad edilir və xalqımız dünya ictimaiyyətini bu haqsızlığa son qoyub Xocalı soyqırımını birmənalı olaraq tanımağa çağırır.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında da Xocalı faciəsi ilə əlaqədar dəyirmi masa və mözuya dair kitabların acıq-baxış sərgisi təşkil olunub.

Sərgidə nümayiş etfirilən kitabların biblioqrafik icmalı:



**Yaqublu Nəsiman.** Xocalı qırğını.- Bakı: Azərnəşr, 1992.- 128 s.

Yazıçı-jurnalist Nəsiman Yaqublunun “Xocalı qırğını” kitabı XX əsrin ən böyük faciəsi olan Xocalı hadisəsinə həsr olunub. Kitabda Xocalı faciəsində ölənlər, yandırılanlar, diri-diri başları kəsilənlər, dırnaqları qoparılıb işgəncə ilə öldürənlər haqqında geniş məlumat verilib.Ermənilərin vəhşiliyi, türk qanına hərisliyi ağrılı bir dillə yazılıb. Kitabda həmçinin ayağı kəsilən, şikəst olan qadınlarımızın, çavanlarımızın, oğlu, qızı itkin düşmüş analarımızın faciəsi də təsvir edilib. Kitab Xocalı hadisəsinin baş verdiyi ildə qələmə alınıb və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.




**Sultanov Ziyəddin. Xocalı** faciəsi.- Bakı: İşıq, 1993.-56 s.

Vətənpərvər jurnalist Ziyəddin Sultanovun bir əsgər-döyüşçü kimi cəbhələri dolaşaraq isti-isti qələmə alıb yazdığı bu əsərini oxuduqca Qarabağda gedən qanlı müharibə, erməni tapdağına çevrilmiş torpaqlarımız, şəhid olan qardaş-bacılarımız, ermənilər tərəfindən girov götürülüb, görünməmiş əzab-əziyyətə düçar edilən, min bir işgəncə ilə öldürülən qız-gəlinlərimizin, qocalarımızın, körpələrimizin harayı, batan qanı... və nəhayət, Xocalı məhşəri, Xocalı genosidi gözlərimiz önündə canlanır.

Oxuculara təqdim edilən bu əsər Azərbaycan xalqının bəşəri faciəsindən-oğullarımızın qanı ilə yazılan Qarabağ faciəsindən, Qarabağ dərdindən bəhs edir. Burada verilən materiallar - sənədli fotoşəkillər, mətn və Xocalı şəhidlərinin ittihamı bu soyqırımının dəhşətini bütün çılpaqlığı ilə xalqa çatdırır. Vətənini sevən hər bir gənc bu kitabı oxumalı və düşmənin layiqli cavabını verməyə hazır olmalıdır.




**İsrafilzadə, Əlisahib Qiyas oğlu.** Erməni-daşnak faşizmi və Azərbaycan : bədii publisistika / Ə. İsrafilzadə. - Bakı : Təhsil, 2007. - 412 s.

Müəllif bu kitabında amansızlığı və xüsusi qəddarlığı ilə seçilən şovinist və militarist, Azərbaycan türkünün varlığına qənim kəsilmiş erməni-daşnak faşizminin, onun aparıcı siyasi qüvvəsi olan daşnak ideologiyasının qatı faşist mahiyyətindən bəhs edir. Qeyri-insani məziyyətlərini tam çılpaqlığı ilə açıb göstərir. Erməni-daşnak faşistlərinin, onun silahlı birləşmələrinin, terror qruplarının, təxribatçı dəstələrinin XIX və XX əsrlərdə, xüsusilə son 100 ildə Azərbaycan türkünə qarşı apardıqları ardıcıl və məqsədyönlü soyqırımı və etnik təmizləmə siyasətinin vəhşiliyindən söz açır. Həmçinin müəllif ümid edir ki, gec-tez dünya birliyi haqq səsimizi eşidəcək, bəşəriyyət və insanlıq əleyhinə cinayət törədən, terror və seperatizmi təbliğ və təşviq edən erməni-daşnak faşizminə də yox deyəcəkdir. Nəhayət, dünya ictimai fikri xristian dünyasının qoltuğuna sığınıb, özünü məzlum, qarşı tərəfi zalım kimi qələmə verən erməni-daşnak faşistlərinin bədnam təbliğatının maskasını yırtmaqda, onu da tarixin zibilliyinə tullamaqda özündə güc-qüvvət tapacaqdır.




**İsrafilzadə, Əlisahib Qiyas oğlu**. Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası : bədii, tarixi publisistika.- Bakı: Təknur MMC, 2009. - 200 s.

Kitabda erməni-daşnak faşizminin son bir əsrdə Azərbaycan türklərinə qarşı yürütdükləri soyqırımı və etnik təmizləmə

siyasətinin terror şiddətindən, onun amansızlığından bəhs edən, sırası minləri aşan konkret faktlar öz əksini tapıb.



**Məmmədov Sabir.** Tarixi saxtalaşdırmaq cinayətdir.- Bakı: Yazıçı, 2012.-360 s.

Kitab 1990-cı ildə daxili işlər naziri M.Əsədovun əmrilə Xocalı polis bölməsinin ilk rəisi təyin edilmiş polis mayoru Sabir Məmmədovun cəbhə xatirələrindən və işlədiyi müddətdə göstərdiyi şücaətdən bəhs edir. Əsər Xocalıda tüğyan edən hadisələr, xocalıların başına gətirilən müsibətlərdən xəbər verilir. S.Məmmədov Xocalıdan üzü bəri bütün cəbhə boyu Ağdam, Goranboy cəbhələrində gedən döyüşlərdə fəal iştirak etmişdir. Təkcə 13 fevral 1992-ci ildə"Mİ-26" vertalyotu ilə Xocalıdan 280-300 nəfər dinc əhalini Gəncəyə, sonra isə avtobuslarla Ağdama gətirmişdir. Müəllifin gənclərə örnək olan bu kitabının kitabxanamızda təqdimatı da keçirilmişdir.




**Xocalı soyqırımı -1992** (sənədlərdə, faktlarda və mətbuatda).- Bakı: Əbilov, Zeynalov və oğulları, 2006.-192 s.

Xocalı həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədilə Azərbaycan Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası 2006-cı ili "Qarabağ ili" elan edərək "Xocalı soyqırımı: sənədlər, faktlarda və xarici mətbuatda" adlı kitabı Azərbaycan, ingilis və rus dilində nəşr etdirib müxtəlif ünvanlara göndərmişdir. Kitab Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ən dramatik hadisələrinə həsr olunmuşdur. Müdhiş tarixi faktların, inkar edilməz dəlillərin, sənədlərin yer aldığı bu kitab Xatın, Sonqmi, Liditse kimi insanlıq tarixinə düşmüş qanlı olaylarla bir sırada duran Xocalı faciəsi haqqında beynəlxalq oxuculara ətraflı məlumat verir. Xocalıda azərbaycanlılara qarşı törədilmiş qanlı faciənin səbəbkarlarını ifşa etməyə, tarixi həqiqətin üzə çıxmasına kömək göstərir.




**Xocalı soyqırımı: milyon imza-bir tələb = Khojaly genoside**: million siqnatures-onedemand= Ходжалинский геноцид: миллион подписей-одно требование.-Bakı: Əbilov, Zeynalov və oğulları, 2007.-536 s.

Xocalı soyqırımı xalqımızın qəlbində daim sızlayan və qaysaq bağlamayan bir yaradır. Azərbaycan Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması tələbilə kütləvi imzatoplama kampaniyasına başlamış və bir milyon Azərbaycan vətəndaşının imzasını toplayaraq "**Xocalı soyqırımı: milyon imza-bir tələb"** adlı kitab nəşr etdirib. Oxuculara təqdim olunan bu kitabda keçən əsrin əvvəllərindən başlayaraq, azərbaycanlılara qarşı erməni şovinist qüvvələrinin

apardığı etnik təmizləmə siyasəti və terror aksiyaları, Ermənistandan azərbaycanlıların kütləvi deportasiyası, Dağlıq Qarabağ konflikti və Xocalı soyqırımı haqqında rəsmi sənədlər, beynəlxalq hüquqi normaların pozulmasını, insanlığa qarşı cinayət və soyqırım faktını təsdiqləyən dəlillər, analitik şərhlər, canlı müşahidələr və digər materiallar verilmişdir. Bu kitabda əsas məqsəd imzası toplanmış bir milyon insanın tələbini dünyaya çatdırmaq və cinayətkarların layiqli cəzasına çatmasıdır. Kitabda materiallar 3 dildə: Azərbaycan, ingilis və rus dilindədir.




**Səmədov, Vasif. Leyla Əliyeva**: "Xocalıya ədalət!" : beynəlxalq erməni terroruna qarşı yeni strateji model: monoqrafiya: 3 cilddə. **I cild.** - Təkrar nəşr. - Bakı : n. y., 2014. - 341 s; **II cild**. - Təkrar nəşr. - Bakı : n. y., 2014. - 373 s.; **III cild** . - Bakı : CBS Polygraphic Production, 2014. - 480 s**.**

Üç cildlik bu kitabda beynəlxalq terrorun bir qolu olan erməni terrorçularının müxtəlif tarixi dövrlərdə Azərbaycan torpaqlarında, xüsusilə ötən əsrin son illərində Ermənistan və onların havadarlarının köməyilə işğal olunmuş Dağlıq Qarabağ ərazisində, o cümlədən, Xocalı yaşayış məntəqəsində törətdikləri kütləvi qırğınlardan, vəhşiliklərdən, soyqırımdan bəhs edilir. Kitabda Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun RF-dakı Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın "**Xocalıya** Ədalət!" kampaniyası çərçivəsində beynəlxalq aləmdə həyata keçirilən təqdirəlayiq tədbirlərdən söhbət açılır. Zəngin fakt və sənədlərlə, sübutlarla əhatə olunmuş bu kitab dünyada terror və zülmə, işgəncə və amansız qətliamlara qarşı mübarizədə tarixi həqiqətləri əks etdirən toplu kimi oxuculara təqdim olunub.

**Erməni terroru=Armenischer Terror= Армянский террор**. - Bakı : Vətən, 2005. - 168 s.




Azərbaycan Respublikası əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən hazırlanmış bu nəşr erməni terrorizmi haqqında həqiqətləri Dünya ictimaiyyətinə çatdırmaq üçün edilən növbəti bir cəhddir.İngilis, rus, alman, türk, erməni dillərində nəşr olunan albom bəşəriyyətin bu bəla haqqında düşünməsinə bir çağırışdır… Və nəhayət bu kövrək planetimizin bütün günahsız terror qurbanlarının müqəddəs xatirəsinə bir ithafdır.

**Vəlişov, Nazim Tapdıq oğlu**. Azərbaycan faciələrinin təqvimi : hər bir azərbaycanlı üçün yaddaş kitabı . - Bakı : MBM, 2010. - 316 s.




Bu kitabda başı tarixən min bir bəlalar çəkmiş Azərbaycanın ayrı-ayrı illərdə üzləşdiyi fəlakət və faciələrin təqvim tarixləri toplanmışdır. Kitabda təqvimin xronoloji ardıcıllıqla düzülən hər bir gününün müxtəlif faciəli hadisələri əks olunmuşdur. Həmin hadisələri ardıcıllıqla izlədikdə bir daha erməni daşnaklarının xalqımıza qarşı lap Cavanşirin, Babəkin dövründən xəyanət və satqınlıq yolu ilə öz məkrli niyyətlərini həyata keçirdiklərinin şahidi oluruq. Müəllif bu kitabı tərtib edib xalqımıza təqdim etməklə onu ayıq olmağa, "yazıq erməni" cildinə girərək gələcəkdə də bu cür və bundan da betər soyqırımları törətməyəcəyinə inanmamağa çağırır. Kitabı hər bir gəncin oxuması tövsiyə olunur.




**Qaraoğlu, Fazil**. Ermənilər və həqiqətlər : rəsmi sənədlərlə / F. Qaraoğlu. **III cild** / red.: N. Mehdiyeva, B. Abdullayev.- Bakı : Nurlar NPM, 2009.- 344 s.

Fazil Qaraoğlunun "Ermənilər və həqiqətlər" kitabı 3 cilddən ibarətdir. Kitabın Sizə təqdim etdiyim III cildində Dağlıq Qarabağ probleminin ermənilər tərəfindən uydurulmuş olması, ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər, 20 yanvar hadisəsi, Xocalı soyqırımı tarixi dərinliklərə gedilərək incələnib müəllifin şərhləri ilə oxucuların diqqətinə çatdırılır. Gənc dost, əgər erməni yalanlarının arxasında hansı həqiqətlərin olduğunu bilmək istəyirsənsə bu kitabı oxu!

**Xocalı faciəsi ilə əlaqədar kitabxanamızın fondunda həm də bədii kitablar var. Onlardan bir neçəsini Sizə təqdim edirəm:**

**Elatlı, Elxan**. Cəhənnəmdən gələn səs : roman / E. Elatlı. - Bakı : MBM, 2009. - 368 s.




Yazıçı Elxan Elatlının "Cəhənnəmdən gələn səs" romanı XX əsrin ən dəhşətli qırğını olan Xocalı soyqırımına və erməni əsirliyində əzab çəkən həmvətənlərimizin acınacaqlı taleyinə həsr edilib. Romanda Azərbaycan milli təhlükəsizlik orqanlarının fəaliyyətinə, anaya və vətənə məhəbbət, dostluq, ilahi eşq mövzularına da geniş yer ayrılıb.




**Rəvan İnqilab Xan.** Xocalı faciəsi : [roman] / Rəvan İnqilab Xan.-Bakı: Çıraq, 2003.-348 s.

İnqilab Xan Rəvan Vəlizadə və Hacı Əliağa Cəfərlinin birgə yazdıqları “Xocalı faciəsi” romanı tarixdə görünməmiş, lakin doxsan ikinci ilin fevral gecəsində erməni qəsibkarlarının Qarabağ torpağında törətdikləri qanlı qırğından, azərbaycanlılar üzərində müxtəlif işgəncələr və qətllər yolu ilə soyqırımı həyata keçirilməsindən bəhs edir.

Əsər torpağını, xalqını, millətini sevən hər bir azərbaycanlının stolüstü kitabı olmalı və gələcək nəslə ərməğan edilməlidir. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.




**Müslümqızı, Səriyyə**. Xocalı uşaqları - Qan içində qar çiçəyi = Дети Ходжалы - Снежный цветок в крови = Children og Khojaly - Bloody primroses . - Bakı : Yazıçı, 2013. – 120s.

Səriyyə Müslümqızı çağdaş ədəbiyyatımızın tanınmış simalarından biridir. Xocalı sakini və şairə Səriyyə Müslümqızının kitab və məqalələri əsasən Dağlıq Qarabağ, Ermənilərin Qarabağda törətdikləri vəhşiliklərə və Xocalı soyqırımına həsr edilmişdir. Onun **Xocalı** soyqırımından bəhs edən ilk kitabı "Qan üstünə qan yağırdı" adı altında 1992-ci ildə nəşr olunmuşdur. Birlik sədri kimi Türkiyədə, Almaniyada Azərbaycan həqiqətlərinin dünyada yayılması ilə əlaqədar tədbirlər keçirmişdir. 2012-ci ildə Macarıstanda kütləvi qırğınların qarşısının alınması mövzusunda beynəlxalq tədbirdə Elmira Süleymanova ilə birgə iştirak etmişdir. Dəfələrlə ölkə daxilində Qarabağın işğalına qarşı tədbirlər keçirmiş, mövzu ilə əlaqədar ölkədə keçirilən beynəlxalq konfranslarda iştirak etmişdir. Qarabağ həqiqətlərinin dünyada yayılması ilə bağlı yazı müsabiqələrində 1-ci və 2-ci yerlərin qalibi olmuşdur.

Xocalı həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq məqsədilə "Erməni təcavüzünün tanıdılması” İctimai Birliyinin sədri, yazıçı-publisist Səriyyə Müslümqızının "Xocalı uşaqları, qan içində qar çiçəyi” adlı povesti Azərbaycan Respublikasının Malayziyadakı səfirliyi tərəfindən malay və ingilis dillərinə tərcümə edilərək kitab şəklində çap olunub. Kitab Qarabağ müharibəsində və Xocalı qırğınında həyatlarını itirən məsum körpələrin taleyindən bəhs edir. Qarabağ boyda bir ağrısı olan vətənpərvər yazıçı ürəyinin qanı ilə yoğrulmuş bu əsəri hər bir gənc oxumalı və düşmənin layiqli cavabını verməyə hazır olmalıdır.

Xocalı faciəsi həm də poeziyamızda : Xalq şairi Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub, Ramiz Duyğun, Mirvarid Dilbazi, Sabir Rüstəmxanlı, Nüsrət Kəsəmənli və b.

şairlərimizin əsərlərində öz əksini tapıb və həmin kitabları bizim kitabxanadan götürüb oxuya bilərsiniz.

Həmçinin, kitabxananın saytına ( www.ryl.az ) daxil olub "Elektron kitabxana“ linkində Xocalı faciəsi haqqında kitabların tam mətnini də əldə edə bilərsiniz.

**24.02.2016**


İcmalı tərtib etdi: İnformasiya-biblioqrafiya şöbəsinin böyük kitabxanaçısı Məmmədova Tamella

Redaktə etdi: İnformasiya-biblioqrafiya şöbəsinin müdiri Şəfiyeva Səadət

**Ünvan:**

Az 1065, Yasamal rayonu, Bakı şəhəri
N.Nərimanov küç., 203

**Əlaqə telefonları:**

(+994 012) 538 02 47
538 54 57
538 93 54

e-mail **ryl.az@mail.ru**